# Naxçıvan dəyişir, gözəlləşir və inkişaf edir



***Qədim Naxçıvan min illərdir ki, oğuz ərənlərinin nəfəsi ilə isinib, möhtəşəm qalalarla qorunub, Dədə Qorqud boylarında ülviləşib, Əshabi-Kəhf müqəddəsliyinə, Əlincəqala yenilməzliyinə ucalıb. Naxçıvanı "Nəqşi-cahan", yəni "dünyanın naxışı", "Dünyanın bəzəyi" də adlandırırlar. Naxçıvanın adı Nuh peyğəmbərlə, daha doğrusu "Dünya tufanı" ilə bağlıdır. "Nuhçuvan" - "Nuh tərəfdarlarının məskəni", "Nuhun diyarı" deməkdir.***

Qədim Azərbaycan torpağı olan Naxçıvan Yer kürəsində həyatın başlandığı ilk insan məskənlərindən biri, sanki dil açıb danışan möhtəşəm tarix kitabıdır. Azərbaycan xalqı bu diyarda qədim və zəngin mədəniyyət yaratmışdır. Naxçıvan, eyni zamanda, dünyanın ən qədim mədəniyyət mərkəzlərindəndir. Bu torpaqda Azərbaycan xalqının zəngin tarixi, elmi və mədəni irsi formalaşmışdır. Bura Azərbaycanın ən dilbər, səfalı məkanlarından biri - möcüzələr diyarıdı. Naxçıvan dünyanın ən qədim şəhər mədəniyyəti mərkəzlərindən biridir. Qədim filosof və mütəfəkkirlər Naxçıvanı təkcə Şərqin deyil, həm də Qərbin parlayan Günəşi hesab ediblər.

Naxçıvan bütün tarixi dövrlərdə Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi mövcud olmuşdur. Daim Azərbaycana ərazi iddiaları irəli sürən Ermənistanın işğalçılığı və təcavüzü nəticəsində Naxçıvan qədim Azərbaycanın tarixi torpağı olan Zəngəzurun ermənilər tərəfindən işğalından sonra Azərbaycanın digər torpaqlarından ayrı salınaraq blokadaya alınmışdır. Lakin bütün bunlara baxmayaraq, bu gün Naxçıvan yüksək dinamik templə inkişaf edən bir diyardır.

## Naxçıvan canlı muzeyi xatırladır

Ürəyində Azərbaycançılıq fəlsəfəsini yaşadan bu diyarı sivilizasiyanın beşiyi də adlandırırlar. Bura qədimliklə müasirliyin çulğaşdığı bir məkandır. Yaşı əsrlərlə ölçülən qədim türbə və tikililər, daş kitabələr, özündə sivilizasiyanın ilkin közərtilərini yaşadan sirli dağlar, mağaralar, qədim qalalar Naxçıvanın min illərin o üzündə qalmış tarixindən xəbər verir. Həm yazılı mənbələr, həm də burada aparılan arxeoloji qazıntılar zamanı tapılan maddi mədəniyyət nümunələri, bu gün də qorunub saxlanılan neçə-neçə abidə bir daha sübut edir ki, bu diyarda şəhər mədəniyyətinin tarixi 5 min ilə yaxındır.

Son illər muxtar respublikada Naxçıvanın tarixi və mədəniyyəti ilə bağlı mindən artıq kitab nəşr edilib, bir-birindən əhəmiyyətli beynəlxalq simpoziumlar və elmi konfranslar keçirilib, 1200-dən çox yerli, ölkə və dünya əhəmiyyətli tarixi abidə öyrənilərək pasportlaşdırılıb. Azərbaycan memarlığında özünəməxsus yeri olan bu abidələr tarixdə Naxçıvan memarlıq məktəbinin nümunələri kimi yaşayır. Bu gün Naxçıvanda dünya memarlıq məktəbinin şah əsəri olan bu qiymətli tarixi tikililər qorunaraq və əsaslı bərpa olunaraq gələcək nəsillərə ötürülür. Bu tarixi tikillərdən biri də xalqımızın mübarizlik və vətənpərvərlik əzmini özündə əks etdirən, əyilməzlik simvoluna çevrilən Əlincəqaladı. Bu il qalada bərpa işləri başa çatdırılıb, burada "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyi də yaradılıb.

Naxçıvan memarlığının nadir incilərindən sayılan Gülüstan türbəsi də elmi və tarixi əsaslarla bərpa olunub.

Artıq Qarabağlar Türbə Kompleksində də bərpa işlərinə başlanılıb. Bu dəyərli tarixi inicimizə də ikinci həyat verilir.

Azərbaycan xalqının qədim tarixini və mədəniyyətini özündə yaşadan Naxçıvan həm də 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı seçilən müqəddəs şəhərdir. Əsaslı bərpa edilən "Əshabi-Kəhf"ə hər il minlərlə zəvvar və turist gəlir.

Naxçıvan Azərbaycana İsmayıl xan, Kəlbəli xan, Hüseyn xan, Cəmşid Naxçıvanskilər kimi hərbi xadimlər bəxş edən bir diyardı. XIX-XX əsrlərdə Naxçıvan nəinki Azərbaycana, həm də dünya mədəniyyətinə Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Bəhruz Kəngərli, Məmməd Səid Ordubadi, Məmməd Araz, İslam Səfərli kimi simalar bəxş edib. Naxçıvan həm də böyük dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Vətənidir. Görkəmli şəxsiyyət Heydər Əliyev 1990-93-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərmiş, taleyüklü tarixi qərarlar qəbul edərək Azərbaycanın ümumi xilasını və inkişafına bu qədim diyardan başlamışdır.

## Qədim diyar bu gün böyük inkişaf dövrünü yaşayır

Son illərdə sənayedə, tikintidə, iqtisadiyyatda, sosial həyatın bütün sahələrində böyük uğurlar qazanılıb. Muxtar respublikada 2016-cı ilin "Nizam-intizamın daha da möhkəmləndirilməsi ili" elan olunması isə məsuliyyət hissini daha da artırıb. Qəbul edilən dövlət proqramları vaxtında icra olunub və nəzərdə tutulmuş tədbirlərin, infrastruktur layihələrinin reallaşdırılması təmin edilib, sosial-iqtisadi həyatın bütün istiqamətləri üzrə müsbət dinamika əldə olunub. Yerli istehsalın dəstəklənməsinin nəticəsidir ki, bu gün muxtar respublikada 365 növdə məhsul istehsal olunur, 343 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir. Ötən illərədə olduğu kimi, bu ilin 6 ayında da ümumi daxili məhsul istehsalında sənayenin payı 32 faiz təşkil edib, onun isə 96 faizi özəl bölmənin hesabına əldə olunub. Bu gün daha bir gənclik dövrünü yaşayan Naxçıvanın yeni binaları, qorunub saxlanılan tarixi tikili və abidələri şəhərə misilsiz görkəm verir.

Hər bir cəmiyyətin ən qiymətli sərvəti onun sağlam üzvləridir. Naxçıvanda həyata keçirilən səhiyyə islahatlarının mərkəzində də insan amili dayanır. Müasir səhiyyə infrastrukturunun yaradılması, diaqnostika, müalicə və doğum mərkəzlərinin, mərkəzi xəstəxanaların, ən ucqar kəndlərdə belə tibb müəssisələrinin iqtifadəyə verilməsi, insanların araslnda səhiyyə maarifi işinin gücləndirilməsi, əhalinin bütün təbəqəsinin lazımi tibbi xidmətlə təmin olunması muxtar respublikada xəstəliklərin səviyyəsinin azalmasına, gələcəyimiz olan gənc nəslin sağlam vətəndaş kimi formalaşmasına səbəb olub.

Blokada şəraitində yaşayan muxtar respublika iqtisadi müstəqilliyini, ərzaq təhlükəsizliyini yerli istehsal hesabına tam təmin edib. Bu, düşünülmüş iqtisadi siyasətin, iqtisadi şaxələndirmənin nəticəsində mümkün olub. Burada 1000-ə yaxın istehsal və xidmət müəssisəsi fəaliyyət göstərir. Ərzaq və qeyri-ərzaq məhsullarına olan tələbatın böyük bir hissəsi yerli istehsal hesabına ödənilir.

Naxçıvan Cənubi Qafqazda yeganə bölgədir ki, təbii ehtiyatlardan səmərəli istifadə edərək əksər tikinti materiallarına olan tələbatını özü ödəyir. İstehsal gücü gündəlik 1000 ton olan Naxçıvan sement zavodu 2012-ci ildə istifadəyə verilib. Burada istifadə olunan xam maddələr -- əhəng daşı, dəmirli gil, kvars, gibs Naxçıvan Muxtar Respublikasının mədənlərindən çıxarılır. Naxçıvan Badamlı, Sirab kimi müalicəvi-mineral sular diyarıdı. Burda saf suyu olan minlərlə təbii bulaq var. Naxçıvanın can dərmanı olan suları, eləcə də dərman bitkiləri müasir standartlar səviyyəsində istehsal edilərək dünya bazarlarına çıxarılır.

Hazırda Naxçıvanda Azərbaycanda minik avtomobilləri istehsal edən yeganə müəssisə fəaliyyət göstərir. 2010-cu ildən Naxçıvan avtomobil zavodunda Çinin Lifan avtomobil şirkətilə müştərək Naz-Lifan avtomobilləri istehsal olunur.

Blokadanın ağır dönəmlərində Naxçıvanda böyük problem olan elektrik enerjisilə təminat bu gün tam həllini tapıb. Belə ki, muxtar respublikada elektrik enerjisinə olan tələbat Arpaçay Su Anbarı üzərində qurulan 20,5 və 1,4 meqavat Heydər Əliyev Su Anbarında 4,5 meqavat gücündə su elektrik stansiyası, maksimal gücü 22 meqavat olan Biləv su elektrik stansiyası və digər müasir su elektrik stansiyaları hesabına ödənilir. Muxtar respublikada ümumi gücü 20 meqavat olan Günəş Elektrik Stansiyası da inşa olunaraq ötən il Prezidentimiz İlham Əliyevin iştirakı ilə istifadəyə verilib. Bu isə ümumilikdə regionda bu tipli ən böyük elektrik stansiyadır. Artıq muxtar respublika elektrik enerjisi idxalçısından enerji ixracatçısına çevrilib.

## Müasir kənd modelləri

Muxtar respublikanın xarakterik cəhətlərindən biri də odur ki, son illər həyata keçirilən sosial-iqtisadi inkişaf proqramları nəticəsində təkcə paytaxt Naxçıvanda deyil, qəsəbə və kəndlər müasirləşib və yenidən qurulub, asfalt yollar salınıb, kənd və xidmət mərkəzləri tikilib. Hər bir kəndin potensialına uyğun olaraq yaradılan yeni istehsal müəssisələri iqtisadi inkişafla bərabər, işsizlik probleminin həllində də əhəmiyyətli rol oynayıb. Son illər muxtar respublikanın kəndlərində dövlət dəstəyi və güzəştli şərtlərlə verilən kreditlər hesabına yüzlərlə kiçik istehsal və emal müəssisəsi yaradılıb.

Bu gün Naxçıvanda sənayenin və aqrar sahənin inkişafı yeni sahibkarlar təbəqəsi yaradıb. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublika üzrə ümumi daxili məhsulun həcmində özəl bölmənin xüsusi çəkisi hər il daha da artır. Artıq naxçıvanlı sahibkarlar ölkədə və dünyada kiçik biznes və xidmət sahələri ilə deyil, yerli xammal əsasında işləyən holdinq və şirkətlərlə təmsil olunurlar.

Son illərdə muxtar respublikada 200-dən artıq məktəb binası tikilib və ya əsaslı təmir olunaraq istifadəyə verilib, təhsil müəssisələrinin maddi-texniki və tədris bazası möhkəmləndirilərək ən yeni informasiya-kommunikasiya vasitələri, genişzolaqlı internet xidmətləri ilə təchiz olunub. Hazırda muxtar respublikada qazla təmin olunmayan heç bir kənd, oba qalmayıb. Naxçıvanın ən ucqar kəndlərində belə sakinlər mavi yanacaqdan istifadə edirlər. 1991-ci ildən blokada şəraitində yaşayan muxtar respublikada geniş yol nəqliyyat infrastrukturu yaradılıb. Nəqliyyat şəbəkəsi müntəzəm olaraq yenidən qurulur və genişləndirilir.

Bu illər ərzində MR-da qazanılan nailiyyətlərdən biri də informasiya blokadasının yarılması, ölkə və dünya informasiya məkanına sürətli inteqrasiyanın təmin olunmasıdır. Rabitə və yeni texnologiyaların tətbiqi sahəsində görülən işlər insanların informasiyaya olan tələbatının dolğun ödənilməsinə, keyfiyyətinin yüksəldilməsinə səbəb olmuşdur. Bütün bunların nəticəsidir ki, bu gün sakinlər Naxçıvanın hansı bölgəsində yaşamasından asılı olmayaraq, geniş zolaqlı və sürətli internetdən, müasir rabitə xidmətindən, İP telefoniya və rəqəmsal televiziya yayımlarından istifadə edirlər.

## Güclü ordu formalaşır

Blokada bir çox məsələlərin həllini zəruri edir. Onların içərisində ordu quruculuğu və müdafiə potensialının gücləndirilməsi mühüm faktordur. Naxçıvanda güclü ordu formalaşmışdır. MR-nın sərhədləri etibarlı qorunur. Sakinlər düşmənə layiqincə cavab verəcək Azərbaycan əsgərinə güvənir, arxayın yaşayırlar. Mütamadi olaraq ordu birləşmə və hissələrinin döyüş qabiliyyəti və maddi-texniki bazası möhkəmləndirilir, hərbi qulluqçuların mənzil şəraiti yaxşılaşdırılır, şəhid ailələri və sağlamlıq imkanları məhdud Azərbaycan Vətən müharibəsi iştirakçısı olanlar yeni mənzillərlə təmin edilirlər. Naxçıvan Muxtar Respublikasında hərbçi kadrların hazırlanması da diqqət mərkəzində saxlanılır. Hazırda Heydər Əliyev adına Hərbi Liseyin məzunları Azərbaycan Ordusunda öz xidməti vəzifələrini şərəflə yerinə yetirir, Naxçıvan torpağının yetirmələri olan generalların layiqli davamçıları kimi yetişirlər.

Muxtar respublikamızda qədim sənətkarlıq ənənələri, milli dəyərlər indi də yaşadılır və bu sənət növləri gənc nəsilə öyrədilir. Burda son illərdə yaradılan sənətkarlıq emalatxanaları qədim sənət nümunələrinə dərin məhəbbətdən irəli gəlir.

Qədim Naxçıvan torpağı bu gün özunun turizm potensialı ilə də öyünə bilər. Naxçıvana son illərdəki turist axını elə bunun əyani sübutudur. Buradakı otel və müasir istirahət mərkəzlərində qonaqların istirahəti üçün hər cür imkanlar yaradılıb. Rəngarəng iqlimə, saf təbiətə, təmiz havaya malik olan Naxçıvan turizm bölgələrini turistlər üçün maraqlı edən əsas cəhətlərdən biri də muxtar respublikada mövcud olan sabitlik, əmin-amanlıqdır. Burada il ərzində, demək olar ki, ağır cinayət hadisələri baş vermir, insanlar, eləcə də bura üz tutan turistlər rahat və təhlükəsiz şəraitdə yaşayırlar.

Bu gün muxtar respublikada blokadanın çətinliklərinə baxmayaraq, böyük quruculuq proqramları gerçəkləşdirilir, Naxçıvan yeni inkişaf mərhələsinə qədəm qoyur, bütün sahələrdə mühüm nailiyyətlər əldə edilir. Naxçıvanda bu uğurların qazanılması və muxtar respublikanın inkişafının bu mərhələsi Vətənə, torpağa bağlılq hissinin ən misilsiz nümunəsi, eləcə də ulu öndər Heydər Əliyev yoluna sədaqətin və bu yolun uğurla davam etdirilməsinin təntənəsidir.

***Ramal MƏMİŞOV,***
***Naxçıvan Televiziyasının baş redaktoru***